

## Şirvani Ədilli

### Tək vətən sevgisi bəsdir

Bir vətən sevgisi bəsdir ürəyində
Alasan sonsuz olan bir gücü ondan,
Açasan bir yeni meydan.
Açıla hər sabahın bir yeni istəkdə,
həvəsdə,
Qoyasan dağı dağ üstə.
Uca, əlçatmaz olan zirvələri
fəth edəsən hər əməlinlə,
Aya, ulduzlara da yol açasan,
sən öz əlinlə.
Bir vətən sevgisi bəsdir
Gələsən sən ən ağır dərdə, əziyyətlərə üstün,
Edəsən dünyada mümkünsüzü mümkün.
Bir vətən sevgisi bəsdir ki,
neçə möcüzə də gerçəyə dönsün!
Bir vətən sevgisi bəsdir ürəyində
Sürəsən ömrünü mənalı, gözəlliklə dolu,
Tutasan doğru yönü, doğru yolu.
Bir vətən sevgisi bəsdir ki,
o sevginlə ölüm kabusuna güc gələsən,
Çatasan bir əbədi ömrə,
ölümsüzlüyə sən!
O vətən sevgisi bir sevgi ki,
aləmdə ucaldar səni yüksəklərə hər an,
Sən o sevginlə olarsan təmiz insan,
gözəl insan,
böyük insan.
Bir vətən sevgisi bəsdir ürəyində
Olasan Tanrına bəndə,
Edəsən varlığını vicdana təslim,
Çıxasan nəfsinə hakim,
Olasan bir əsl insan, əsl alim!
Bir vətən sevgisi bəsdir
sevəsən sən bütün insanlığı qəlbdən,
Olasan məzluma dost, zalıma düşmən,
Edəsən haqqa və insanlığa xidmət,
Qoy vətən sevgisi üstündə də
xoşbəxtliyə çatsın bəşəriyyət!
Qoy bütün dünyanın insanları öz yurdunu sevsin,
Xoş gedər göydə Xudaya.
Çünki, zatən bəşərin düşdüyü min
dərdə, bəlaya
Başqa bir çarə əbəsdir,
Tək vətən sevgisi bəsdir!

**Oktyabr, 2017.**

### Millət oğulları

Güneyli fədakar milli
hərəkatçılarımıza
Ömrü fəda edib millət yolunda
Hər ağrı, əzaba dözən oğullar,
Bir məğrur görkəmlə, bir mərd duruşla
Böyük Türk tarixi yazan oğullar!
Bu yol zindanlardan keçirmiş demə,
Zindan da bu yolun bir bələdçisi.
Hər zindan bir yeni yol açar sizə,
Hər yoldan ucalar türkün haqq səsi.
O zindanlara da şərəf gətirib
Qədəmlərinizin düşən hər izi.
Şərəflə yaşanan zindan ömrünüz
Tanrı dərgahına qaldırıb sizi!

**12.02.2013.**

### Bayraq günü

9 noyabr 2015-ci il tarixində
Güneydə fars şovinizminə qarşı
kütləvi etiraza qalxmış fədakar
soydaşlarımıza

Bayraq günü bayraq kimi yüksəldi, ucaldı
Türk millətinin haqq səsi bir anda Güneydə.
Bir həmlədə düşmənlərini lərzəyə saldı
Haqq yumruğu zülm üstünə qalxanda Güneydə.
Haydı, irəli, güclü, cəsarətli oğullar,
Xoşbəxt gələcək sizlərə möhtac, hamı anlar.
Tarixdə sizinlə yeni bir dövran açılmış,
Alqış bu fədakarlığa, bu qeyrətə alqış!
Qəlblərdə azadlıq kimi məfkurəni görcək
Yer-göy də müqəddəs bu savaşda sizə dəstək!
Hayqırtınıza yerdəki daşlar da oyanmış,
Mədh etmək üçün sizləri amadə dayanmış.
Alqış sizə, alqış sizə, alqış sizə, alqış!

**09.11.2015.**

### Fars şovinizminə

Ey xalqlara düşmən kəsilən fars şovinizmi,
İnsanlığa bu zülmünü Allah götürərmi?
Ey saxta, münafiq, başı əmmaməli şeytan,
Bir gün də sənə bəs qənim olmazmı o Qur'an?
Xaricdən alıb dəstəyi çıxdın başa birdən,
Çıxmaqla da oldun bütün insanlığa düşmən.
Fars olmayanın varlığını görmədin əsla,
Farsdan savayı heç kəsə haqq vermədin əsla.
Fars olmayan hər xalqı yox etməkdir amalın,
Ancaq qalacaq bil ki, gözündə bu xəyalın.
Lənət sənə, lənət sənin amalına min yol,
Ey dövrümüzün qanlı bəlası, daha məhv ol!
Türk milləti öz haqqını mütləq alacaqdır,
Zülmə zəfəri mütləq ədalət çalacaqdır!

**24.06.2014.**

### Müharibə istəyirəm

Torpağımız işğal altda,
milli ordu nəyə gərək?
Təlimlərdə mərmi atdı,
hədəf vurdu,
nəyə gərək?
Müharibə istəyirəm!
Sülh istəyən əcnəbilər
Özləri də yaxşı bilər,
Belə yerdə sülh istəmək
İşğalçını dəstəkləmək.
Onda bu sülh nəyə gərək?
Müharibə Istəyirəm!
İstəyirəm torpağımız bütöv olsun,
azad olsun,
Babaların ruhları da qoy şad olsun.
Rahat yatmaz məzarında
Abbas Mirzə,
Müharibə başlamağı
o, görk edib axı bizə.
Müharibə istəyirəm,
Düşmən üstə yeriməkçün
hər an əmr gözləyirəm.
Müharibə İstəyirəm,
Azad olum,
Rahat olum,
Zalımlara qənim olum,
Məzlumlara imdad olum.
Müharibə istəyirəm,
Əsarətin zəncirini vurub, qırıb
atmaq üçün.
Müharibə istəyirəm,
Bir həqiqi, əsl sülhə
çatmaq üçün.
Müharibə istəyirəm,
Müharibə istəyirəm!

**23.02.2012.**

### Bakım

Bakım mənim,
Neçə ildir sərt küləkli nəm havanı
uduram mən.
Mənim doğma, azad ruhlu,
gen qucaqlı şəhərimsən.
Neft qoxulu torpağına
göz dikdilər bir zamanlar.
Hər küçəndə,
Hər köşəndə
yad dillərdə çox ötdülər
sənə özgə, yad insanlar.
Fəqət nə o sərt küləyin,
Nə torpağın, daş-kəsəyin,
Havan, suyun, daş-divarın,
Döngən, tinin, dalanların
Dözmədilər bu zillətə,
çox yandılar, alışdılar.
Onlar bir an əyilməyib əsarətə
doğma dildə danışdılar!
Sən sanma ki, bir şəhərsən,
Bir şəhərçün yükün çox-çox ağır sənin,
Güzgüsüsən sən dərd çəkən bir Vətənin.
Vətənimin sevinci də, kədəri də
dönə-dönə
Əks olunub o simanda
bircə-bicə, dənə-dənə.
Küləyində əsir o yurd yerlərinin
min ah dolu havası var,
Dəlmələnən, taptalanan torpağında,
Təbrizimin, Kəngərimin,
Ulu Turan ellərimin
qanlı-qanlı yarası var.
Üz tutanın soraq yeri,
pənah yeri,
Türklüyümün sabah yeri.
Quzeyimin
Güneyimin,
gözü səndə,
Hər dərdləri çəkən oldun,
Hər dərdimin izi səndə.
Sən əzəldən bir, eşq, sevgi şəhərisən,
Görən sevər, vurğun olar
bir görüşdən.
Qoynundakl o göy dəniz
Sənə olan sonsuz-sonsuz
sevgilərdən yaranmışdır.
Fəqət gülmür üzün sənin
Gen simanda ərşə çatan
hüzn, kədər qalanmışdır.
Bilirik, sevgili şəhər,
Sevgi hələ sevinc deyil
(sevilmək sevinmək deyil),
Gülmür Vətən –
Sən güləsən.
Amma o gün gələcəkdir
Azadlığın, bütövlüyün sevinciylə
o gül üzün güləcəkdir!

**21.06.2017**